# Hesabat yığıncaqları davam edir

Rayonumuzda yerli icra nümayəndəliklərinin hesabat yığıncaqları davam edir. Yengicə kənd İnzibati ərazi nümayəndəliyində keçirilən hesabat iclasında icra nümayəndəsi Ruslan Qəribov yaşayış məntəqəsində 2019-cu ildə görülən işlər haqqında geniş məruzə edib.

İclasda il ərzində kənddə görülmüş işlər barədə ətraflı danışılıb, kəndin sosial-iqtisadi inkişafı və qarşıda duran vəzifələr geniş təhlil olunub.

Qeyd olunub ki, hesabat ilində kəndin daxili yolları təmir edilib, sakinlər fasiləsiz olaraq içməli su, işıq, qaz və rabitə ilə təmin olunub.

Hesabat iclasında bildirilib ki, nümayəndəliyin ərazisində 2020-ci ilin məhsulu üçün 18 hektar əkin işləri aparılıb. Bunun 15 hektarı buğda, 3 hektarı arpadır. Kənd sakinləri 2019-cu ildə 260 kq barama tədarük ediblər. Bu il isə bu rəqəmin 300 kqdan artıq olması nəzərdə tutulub. Barama qurdlarının bəslənməsi üçün kənddə 500 ədəd tut tingi əkilib.

Məruzədə "Yerli İcra hakimiyyətləri haqqında Əsasnamə"nin tələblərinə uyğun olaraq nümayəndəliyin üzərinə düşən vəzifə-



lər və səlahiyyətlərin icrası sahəsində görülən işlər barədə kənd sakinlərinə ətraflı məlumat verilib.

Daha sonra rayon İcra hakimiyyəti başçısının müavini Ətayə Osmanova çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qəbələ rayonuna göstərdiyi xüsusi qayğıdan söhbə



açıb, həyata keçirilən layihələrin nəticəsində bu gün rayonumuzun uğurlu sosial-iqtisadi inkişafından, aparılan tikinti, quruculuq və abadlıq işlərindən danışıb.

Hesabat yığıncağı açıq fikir mübadiləsi və diskusiyalar şəraitində keçib, sakinlər çıxış edərək onlara göstərilən dövlət qayğısından razılıqlarını ifadə ediblər.

İşgüzar şəraitdə keçən hesabat iclasında qərar layihəsi qəbul edilib.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Müəllimlərin işə qəbulu qaydalarına dəyişiklik

Növbəti tədris ili (2020-2021) üçün dövlət ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu (MİQ) qaydalarına bir sıra dəyişikliklər edilir.

Qaynarinfo xəbər verir ki, bu barədə Təhsil Nazirliyinin "Telegram" səhifəsində məlumat paylaşılıb.

Belə ki, test imtahanı mərhələsində iştirak edən namizədlərə ixtisas üzrə 40, təlim stratergiyaları və metodika üzrə 20 test tapşırığı təqdim olunacaq(cəmi-60 sual). İmtahan proqramına məntiq üzrə test tapşırıqları daxil edilməyəcək.

Qeyd edək ki, "Təhsil haqqında"Azərbaycan Respublikası Qanununa edilmiş əlavələrə əsasən dövlət ümumtəhsil və peşə təhsil müəssisələrində çalışan müəllimlər 2020-ci ildən başlayaraq sertifikatlaşdırmadan keçəcəklər. MİQ müsabiqəsinin nəticəsinə əsasən, işə qəbul olunan müəllimlər sertifikatlaşdırmadan keçənlərə bərabər tutulacaq. Sertifikatlaşdırma prosesində iştirak edən müəllimlərə məntiqə aid sualların təqdim olunması nəzərdə tutulmadığından qaydalara sözügedən dəyişiklik edilib.

# Yeni layihə həyata keçiriləcək

Qəbələ Dövlət Peşə Tədris Mərkəzi ASPİ AQRO MMC müəssisəsi arasında duala bənzər peşə təhsili və təliminin tətbiqi üzrə qurulmuş strateji əməkdaşlıq əlaqəsi öz töhfəsini verir. Belə ki, peşə tədris mərkəzi üçün ayrılmış sahədə yeni üzüm növlərinin yetişdirilməsi, emal edilməsi və xarici bazarlara çıxarılması nəzərdə tutulub.

Qeyd edək ki, layihənin həyata keçirilməsində məqsəd tələbələrin nəzəri biliklərinin praktiki olaraq tətbiqinə imkan yaratmaq, tələbə və müəllim heyətini qabaqcıl təcrübə ilə tanış etmək və beləliklə üzümçülük və şərabçılıq üzrə ixtisaslı mütəxəssislərin hazırlanmasına dəstək göstərməkdir.

Xatırladaq ki, layihə Avropa İttifaqı və Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi tərəfindən maliyyələşir. Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti tərəfindən icra olunan pilot layihənin tətbiqi kənd təsərrüfatı və turizm sahələrində peşə təhsili və təliminin cəlbediciliyinin artırılmasını və əmək bazarına uyğunluğunu təmin edəcəkdir.

# Abadlıq işləri görülüb

Faşizm üzərində qələbədən sonra doğma Azərbaycanımızın da əksər bölgələrində naməlum əsgər abidələri ucaldılıb və ənənəvi olaraq bu abidələr xalqın inam və ziyarət məkanına çevrilib.

Belə abidələrdən biri də Bum qəsəbəsinin mərkəzində ucaldılıb. Qələbənin 75 illiyi ərəfəsində inzibati ərazi nümayəndəliyi və qəsəbə bələdiyyəsi tərəfindən burada cari təmir işləri görülmüşdür. Abidədə xeyli səliqə-sahman işləri aparılmış, bəzək ağacları əkilmiş, rəngələnmə işləri həyata keçirilmişdir.

Əvvəlki görkəminə qaytarılan naməlum əsgərin abidəsi uzaqdan diqqəti cəlb edir.

# Yola salınmışdır

Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbində qabaqcıl, öz işini qəlbən sevən, ona ürəkdən bağlanan müəllimlər çoxdur. Onlardan biri də ibtidai sinif müəllimi Zəminə Əzəmmədova idi. Onun dərs dediyi şagirdlər hər vaxt yuxarı siniflərdə fəallıqları ilə seçilirdilər. Təqaüdə çıxması ilə əlaqədar onun məktəbdə yola salınma mərasimi keçirilmişdir. Toplantı şirin stol arxasında baş tutmuşdur. Yığıncağı məktəbin direktoru Məlahət Dadaşova açaraq Zəminə müəllimənin uğurlarından danışmış, ona uzun ömür və can sağlığı arzulamışdır.

Müəllimlərdən Hürü İbrahimova, Əntiqə Hacıyeva, Pərvanə Ramazanova, Mehparə Əzəmmədova, Süreyya Məmmədova, Gülnarə Məmmədova, Ruhəngiz Musayeva, Xatirə Cəfərova, Arzu Bəkirova, Rəfiqə Qaragözova, Ulduzə Umarova, Mətanət Soltanova, Dilbər Quliyeva, Günay Qaragözova, Dilşad Yaqubova və başqaları çıxış edərək ürək sözlərini söyləmişlər.

Toplantıda təqaüddə olan müəllimlərdən Tamella Əhmədova və Emin Ədilov da iştirak etmişlər. Mərasimdə Emin Ədilov öz həmkarına ithaf etdiyi şeirini oxumuşdur.

**Emin BARATOĞLU,**
**AJB-nin üzvü,**
**"Qəbələ"nin müxbir postunun rəhbəri.**

# İcbari tibbi sığorta haqqında soruşurlar

**İcbari tibbi sığorta kimlərə aiddir?**

İTS dünya səhiyyəsində geniş yayılmış tibbi xidmətlər modelidir və həmrəyliyə əsaslanan sosial layihədir. Yəni insanlar xəstələnmədiyi halda da müəyyən fondlara vəsait keçirir və onlar cəmlənir.

Xəstəliyi olan insanlar bu vəsaitlərdən istifadə etməklə müalicə ala bilir. Bu qaydada insanlar bir-birlərinə qarşılıqlı yardım etmiş olurlar.

İTS sayəsində insanlar hər zaman, əllərində maliyyənin olub-olmamasından asılı olmayaraq dövlətin zamanət verdiyi tibbi xidmətləri pulsuz əldə etməlidirlər.

Azərbaycanda İTS-dən vətəndaşlar, müvəqqəti və ya daimi yaşamaq üçün icazəsi olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər faydalana biləcək.

**Nəyə lazımdır?**

İTS tibbi xidmətlərin keyfiyyətinə də nəzarət edilməsinə, həkimlərin məsuliyyətinin artırılmasına, insanların səhiyyə xidmətlərin çatımlılığının təmin edilməsinə şərait yaradır.

İTS vasitəsilə həkimlərin xəstələrə yazdığı müalicəyə üçüncü bir tərəf nəzarət edəcək, çünki həkimin yazdığı müalicə və dərmanlar barədə məlumat İTS agentliyinə daxil olacaq.

Bu təşkilat müayinənin düzgünlüyünü yoxlamalı və keyfiyyəti ilə maraqlandıqdan sonra xərclərin ödənilməsini öz üzərinə götürməlidir.

**İcbari tibbi sığorta üçün ödənişlər necə həyata keçirilir?**

İTS, müvafiq fonda müəyyən sığorta haqqı köçürməklə maliyyələşir. Konkret olaraq, çalışan insanlar öz maaşlarından, şirkətlər işçilərinin adına, müvafiq dövlət qurumları isə çalışmayan şəxslər- təqaüdçülər, uşaqlar və işsizlər üçün fonda ödənişlər etməlidir.

İTS üçün rüsumları dövlət müəyyən edir. Bu cür sığorta üçün ödəniş yalnız bank köçürməsi və ya ödəniş aparatları ilə həyata keçirilməlidir.

"İcbari tibbi sığorta haqqının birbaşa tibb işçilərinə təqdim edilməsi qadağandır!", Azərbaycanda bu layihəni həyata keçirən Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin saytında bildirilir.

**İTS-ə dərman preparatlarının əldə edilməsi də daxildirmi?**

İlkin İTS zərfinə daxil olan xidmətlər (təcili və təxirəsalınmaz tibbi yardım, habelə stasionar müalicə) zamanı istifadə olunacaq dərman vasitələri və tibbi ləvazimatlar baza zərfinə daxildir.

Bu layihəni ölkədə həyata keçirən qurum, Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi 2007-ci ildə yaradılsa da, onun strukturu təxminən 8 ildən sonra, 2016-cı ilin dekabrında təsdiq edilib.

18 yaşına çatmamış uşaqlar, əyani təhsil alan tələbələr, işləməyən təqaüdçülər və aztəminatlı ailələr sığorta haqqı ödəməkdən azad edilir.

**İcbari tibbi sığortaya hansı tibbi xidmətlər daxildir.**

İTS-ə daxil olan xidmətlər zərfini dövlət müəyyən edir. Tibb müəssisəsinə gedən şəxs tibbi sığorta kartını təqdim etməklə həmin paketə daxil olun bütün xidmətləri pulsuz əldə edir.